

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 61 (24.198)

7 aprel 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Tarixi İpək Yolu fonunda Zəngəzur dəhlizi

*Azərbaycan 2020-ci ildə dünya hərb tarixində müasir müharibənin yeni qaydalarını yaradaraq Qələbə qazandı və dünyaya nümayiş etdirdi. Bununla yanaşı, qələbəmiz yeni geosiyasi reallıqlar yaratdı. Ermənistanın kapitulyasiya aktını imzalaması ilə şərtləri qalib ölkəmiz tərəfindən diktə edilən bəyannamədə Azərbaycanın ayrılmaz tərkib hissəsi sayılan Naxçıvan Muxtar Respublikasının blokadadan çıxması yolunda ciddi addımlar atıldı. Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi son addımlar ən aktual məsələlərdəndir. İstər ölkə ictimaiyyəti, istər region ölkələri, istərsə də dünya bu prosesi maraqla izləyir.*




Ermənistanın həyata keçirdiyi işğal siyasəti bölgədə həyatı, həmçinin də iqtisadiyyatı ciddi şəkildə gerilədib. Kommunikasiyalar öz işləkliyini itirib. Ermənistanın bu fəaliyyəti ilk olaraq özünə ciddi zərər vurub. Çünki yeni enerji və digər kommunikasiyalardan kənarda qalıb. Yəni öz-özünü həm iqtisadi, həm də siyasi cəhətdən blokadaya almış olub.

Böyük İpək Yolunun keçdiyi ərazilərdə xalqların, dövlətlərin siyasi, iqtisadi cəhətdən əlaqələri təmin edilib. Eləcə də bu qədim yol keçdiyi ərazilərin sosial-iqtisadi inkişafına şərait yaradıb. Dövlətlərin və xalqların inteqrasiyasını təmin edib. Tarixi qədim dövrlərə dayanan bu yolun əsas etibarilə türk dövlətlərinin ərazisindən keçməsi İpək Yolunun türk dövlətlərinin birliyi baxımından nə qədər önəmli olduğunu bir daha ortaya qoyur.

Böyük İpək Yolu Çini Orta Asiya vasitəsilə Yaxın Şərq, Aral və Xəzər dənizləri ilə birləşdirən karvan yolu olmuşdur. Bu yola diplomatiya yolu, həmçinin kəşfiyyat yolu, eləcə də mədəniyyətlərin qovuşması, xalqların yaxınlaşmasını təmin edən müstəsna əhəmiyyətli dəhliz kimi də baxmaq lazımdır. “Böyük İpək Yolu” termini bizim eradan əvvəl məşhur Çin səyyahı Çjan Syanın səfərindən sonra işlədilib.

Eramızın II əsrində fəaliyyətə başlayan bu yol XVI əsrə qədər mövcud olub. Çindən başlayaraq Balkan yarımadasına qədər irəliləyib. Bu yolla hərəkət edən karvanların ən dəyərli məhsulunun ipək olduğunu nəzərə alaraq bu məşhur karvan yolunun adını 1870-ci ildə alman fotoqrafı Fon Rixtofen “İpək Yolu” qoyub.

Azərbaycan ərazisi bu qədim ticarət yolunun əsas keçidlərindən biri olmaqla yanaşı, həm də Asiya ilə Avropa arasında xüsusi körpü rolunu oynayıb.

Azərbaycanın yenidən müstəqilliyini qazanması, müstəqil siyasət həyata keçirən bir tərəfdaş kimi qəbul edilməsi tarixi İpək Yolunun bərpasında ölkəmizin gələcək perspektivlərindən xəbər verir. Avropa və Asiya arasında əlaqələrin yenidən bərpası və inkişafı fonunda TASİS proqramı meydana gəlib. 1993-cü ilin may ayında TRASEKA ( Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı qəbul olunub.

Təsadüfi deyil ki, tarixi İpək Yolunun bərpası istiqamətində ən fəal ölkə Azərbaycan seçildi. Bu cür qlobal bir məsələyə Bakı ev sahibliyi etdi. 1998-ci ilin sentyabrında tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi. 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə keçirilən konfransda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin çıxışında Avropa və Asiya arasındakı körpü rolu baxımından Azərbaycanın əhəmiyyəti xüsusi vurğulandı.

Böyük İpək Yolundakı ən mühüm keçidlərdən biri də Azərbaycanın qədim torpağı Naxçıvandır. Mənfur düşmənlərin düşünülmüş siyasətlərinin nəticəsi olaraq Azərbaycanın əsas hissəsindən ayrı salınan bu qədim diyar strateji coğrafi mövqeyi və əlverişli təbii şəraiti nəticəsində qədim insanların ilk yaşayış məskənlərindən biri olmuşdur. Bütün bu amillər qədim Naxçıvanı, hətta Eldənizlər dövlətinin paytaxtına çevirmişdir. Bu tarixi dövrdə Naxçıvan siyasi, iqtisadi cəhətdən daha da inkişaf etmişdir. Həm Atabəylər dövlətinin paytaxtı olması, həm də dünya ticarət yollarının üzərində yerləşməsi bu qədim diyarı sürətli inkişafı ilə digər şəhərlərdən fərqləndirmişdir. Naxçıvan şəhəri cənubdan şimala uzanan Marağa-Dəbil yolunda əsas keçid rolunu oynayırdı.

Elmin, texnikanın sürətli inkişafı, demokratik dəyərlərin dövlətlər üçün əsas meyar olduğu müasir dövrdə İpək Yolunun bərpası yeni bir qlobal faktor kimi dəyərləndirilir. Məhz bu faktorlardan biri də Zəngəzur dəhlizidir. 30 illik işğal dövründə böyük dövlətlərin səssiz qaldığı erməni vandalizmi, beynəlxalq hüququn işləkliyini itirməsi, dünyanın ən mötəbər qurumlarından sayılan BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin kağız üzərində qalması, ATƏT-in Minsk qrupunun isə münaqişəni dondurulmuş statusda saxlaması Azərbaycan dövlətinin və xalqının səbir kasasını daşdırdı. 2020-ci il 27 sentyabr tarixdə erməni hərbi birləşmələrinin atəşkəsi pozması Azərbaycanı əks-hücum əməliyyatına başlamasına vadar etdi. 44 gün davam edən İkinci Qarabağ müharibəsi dünyada səs salacaq şanlı Qələbə ilə başa çatdı. Azərbaycan Ordusu və Azərbaycan diplomatiyası XXI əsrin hərbi-siyasi tarixini yazdı. Bütün dünya qalib Ordu və Müzəffər Ali Baş Komandan iradəsində birlik gördü. Müharibənin nəticələri barədə dünyada geniş müzakirələr başladı.

Müzakirə edilən məsələlərdən biri də Zəngəzur dəhlizi və onun beynəlxalq əhəmiyyəti idi. Təbii ki, bu müzakirələr səbəbsiz deyildi. Zəngəzur dəhlizi həm tarixi aspektdə, həm müasir geosiyasi reallıqlar prizmasında, həm də Cənubi Qafqazda sülh, barış və əməkdaşlığın bərpa olunmasında prinsipial əhəmiyyət daşıyır. Bu məsələ ətrafında baş verən hadisələr göstərir ki, o, çoxparametrli, müxtəlif sahələri əhatə edən faktorlarla əlaqəlidir. Zəngəzur dəhlizinin çoxəsrlik tarixinə nəzər salsaq, bir sıra faktorlar yenə də qabarıq şəkildə görünür. Çar Rusiyasının tarixi Azərbaycan torpaqlarında inzibati dəyişiklik etməsi, bölgənin demoqrafiyasını məqsədli şəkildə dəyişməsi Zəngəzurun acı aqibətinin xəbərçisidir. Ötən əsrin 20-ci illərində tarixi Azərbaycan torpağı olan Zəngəzur bölgəsi Ermənistan SSR-in tərkibinə verildi. Bununla da regionda tarixi və coğrafi bütövlük pozuldu. Lakin İkinci Qarabağ müharibəsində Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlardan biri də Zəngəzur dəhlizidir. Bu tarixi ticarət yolu istər region, istərsə də dünya üçün yeni perspektiv deməkdir. Bu dəhlizin yeni imkanları maraqlı dövlətləri özünə cəlb edir. Qeyri-region ölkəsi olmasına baxmayaraq, Çin dövləti də Zəngəzur dəhlizinin açılmasına maraqlıdır. Çinin “Bir kəmər, bir yol” layihəsi çərçivəsində planlanan 3 ticarət yolundan biri olan “Orta yol” nəqliyyat dəhlizi Zəngəzur dəhlizinin önəmini daha da artırır. “Bir kəmər, bir yol” layihəsi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri ticari-iqtisadi əlaqələrin ucuz, təhlükəsiz, sürətli yolla təşkil edilməsindən ibarətdir. Bu məqsədlə şərti olaraq “Şimal yolu”, “Orta yol” və “Cənub yolu” kimi terminlər də daxil edilib. “Şimal yolu” Rusiya ərazisindən keçərək Avropaya uzanan, “Orta yol” Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan-Türkiyəni əhatə edən marşrutu, “Cənub yolu” isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir. Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda Azərbaycan ərazisində kəsişir. Azərbaycan tərəfinin məqsədi və mövqeyi qətiyyətli, eyni zamanda aydındır ki, Zəngəzur dəhlizi, hər şeydən əvvəl, regional əməkdaşlıq qarşısında illərdir, dayanan maneələrin aradan qaldırılmasına xidmət etməlidir. Daha sonra regionda davamlı və möhkəm sülh və sabitlik, həmçinin perspektiv imkanlar yaratmalıdır. Dəhlizin mümkün imkanlarını nəzərə alan bir çox dövlət artıq bu reallığı qəbul edərək Zəngəzur dəhlizini dəstəkləyir. Əməkdaşlıq fonunda Azərbaycan “Altılıq” platformanı da təklif edir. Bu platforma region ölkələrini bir-birinə daha da yaxın edəcək. Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın əməkdaşlıq və təhlükəsizlik sahələrində ortaq fəaliyyət göstərməsi üçün xüsusi platformada birləşməsi nəzərdə tutulub. Yəni bu ölkələr regiondan kənarda olan qüvvələrlə əməkdaşlıq və təhlükəsizlik məsələlərində razılaşdırılmış formada və bir əməkdaşlıq formatının üzvləri kimi iştirak etməlidirlər. Deməli, Zəngəzur dəhlizi həmin altı dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir və onun təhlükəsizliyi onların hər birinin vəzifəsidir. Belə ki, Cənubi Qafqazda hansısa dövlətin hegemon davranışına son qoyulur. Burada Azərbaycan, Rusiya, Türkiyə, Gürcüstan və İran bir yerdə aparıcı rol oynamalıdır. Digər bir məsələ isə Azərbaycanın istənilən əməkdaşlıq platformasına Ermənistanı da aid etməsidir. Bu humanizm bölgədə uzunmüddətli sülh və əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir.

Nəticə olaraq Azərbaycanın regionda yaratdığı yeni geosiyasi fonda Zəngəzur dəhlizi tarixi bir inkişaf yolu və çox yaxın reallıqdır. Çinin, Avropanın, eləcə də region dövlətlərinin Zəngəzur dəhlizində ortaq maraqları bu tarixi 300 ilə dayanan qədim yolun bərpasını daha da reallaşdırır. Qardaş Türkiyə dövləti ilə imzalanan, qardaş sevgisini, qardaş dəstəyini dünyaya nümayiş etdirən Şuşa Bəyannaməsi bölgədə əməkdaşlığın, sülhün inkişaf perspektividir. Analoqu olmayan bu birlik Azərbaycanın regionda və dünyada söz sahibinə çevrilməsində də rol oynayır.

Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyini ölkə başçısının Naxçıvan səfərində də gördük. Prezident cənab İlham Əliyev bu sözləri 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan televiziyasına müsahibəsində deyib: ***“Mən, təsadüfən, Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır”.***

Qalib ordu, Müzəffər Ali Baş Komandan və müzəffər xalq birliyi sülhün, təhlükəsizliyin, beynəlxalq əməkdaşlığın qarantıdır.


**Nazlı YAQUBOVA**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə dissertant***


## Türkiyənin Naxçıvandakı Baş konsulu ilə görüş olub



*Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya AMEA Naxçıvan Bölməsində olub. Bölmənin sədri, akademik İsmayıl Hacıyevin və elmi-tədqiqat müəssisələri rəhbərlərinin iştirak etdiyi görüşdə həyata keçirilməsi nəzərdə tutulan işlərlə bağlı fikir mübadiləsi aparılıb.*

İsmayıl Hacıyev əvvəlcə muxtar respublikaya təyinatı münasibətilə Asip Kayanı təbrik edib, Baş konsula fəaliyyətində uğurlar arzulayıb.

Naxçıvan Bölməsinin fəaliyyəti dövründə Türkiyə Cümhuriyyətinin muxtar respublikadakı Baş Konsulluğu ilə sıx əməkdaşlıq etdiyini bildirən akademik bu münasibətlərin gələcəkdə də uğurlu davamına əminliyini ifadə edib. Söhbət zamanı Naxçıvan Bölməsinin Ulu Öndər Heydər Əliyevin bölgənin mühüm strateji mövqeyi ilə əlaqədar olaraq imzaladığı Sərəncama əsasən yaradıldığı diqqətə çatdırılıb, bölmənin ümumi fəaliyyəti, burada fəaliyyət göstərən elmi-tədqiqat müəssisələri, o cümlədən bu günədək nəşr olunmuş elmi, fundamental əsərlər barədə qonağa məlumat verilib.

Qeyd olunub ki, AMEA Naxçıvan Bölməsi Türkiyənin bir neçə elm və təhsil müəssisəsi, eləcə də türkiyəli elm adamları ilə səmərəli əməkdaşlığını davam etdirir. 2022-ci il may ayının 24-də Türk Tarix Qurumu ilə Naxçıvan Bölməsi arasında birgə əməkdaşlığa dair müqavilə imzalandığını, oktyabr ayında isə həmin əməkdaşlıq çərçivəsində bölmənin bir qrup əməkdaşının Ankara şəhərinə dəvət olunduğunu xatırladan akademik bildirib ki, bu əlaqələr gələcəkdə daha da geniş və faydalı şəkildə davam etdiriləcəkdir.

Sonra İsmayıl Hacıyev qonağa kitablar hədiyyə edib.

Baş konsul Asip Kaya çıxış edərək diplomatik fəaliyyəti barədə məlumat verib. Muxtar respublikaya təyinatından, burada xidmət etməkdən məmnunluq duyduğunu bildirən qonaq humanitar, iqtisadi və elm sahəsində mümkün əməkdaşlıqlardan, Naxçıvanın turizm potensialından söz açıb. İki qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olduğuna diqqət çəkən Asip Kaya Şuşa Bəyannaməsi ilə rəsmiləşdirilən Türkiyə-Azərbaycan müttəfiqliyini, ən çətin zamanlarda bir-birinə göstərdikləri mənəvi dəstəyi bu qardaşlığın dünyaya bəyanı kimi səciyyələndirib. Bildirilib ki, Naxçıvanın mühüm geosiyasi mövqeyi, yaxın zamanda Zəngəzur dəhlizinin açılması ilə bölgənin daşıyacağı strateji önəm mədəni fikir mübadiləsinin vacibliyini şərtləndirən amildir. Bununla bərabər, hər iki ölkə arasında ortaqlığın elm sahəsində də davamının labüd edir.

Asip Kaya gətirdiyi hədiyyəni və Türk Tarix Qurumu tərəfindən hədiyyə olunan 80-ə yaxın kitabı AMEA Naxçıvan Bölməsinə təqdim edib.

Görüşdə Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov fondda mühafizə olunan türkdilli əsərlər, onların tədqiqi ilə bağlı məlumat verib, Türkiyə türkcəsində olan əlyazma və çap kitablarının toplanılmasına ehtiyac duyulduğunu bildirib.

Baş konsul daha sonra bölmənin elmi nəşrlərindən ibarət sərgi və Əlyazmalar Fondunun “Şərq zalı” ilə tanış olub. Tanışlıq zamanı zalın türkdilli ədəbiyyatlarla zənginləşdirilməsi ilə bağlı qarşılıqlı razılığa gəlinib.


***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*7 aprel Ümumdünya Sağlamlıq Günüdür*

## Milli səhiyyənin inkişafına hərtərəfli dövlət qayğısı muxtar respublikada da öz bariz ifadəsini tapır



*Ümumdünya Sağlamlıq Gününün yaradılmasından 75 il ötür. Hər il aprelin 7-də qeyd edilən Ümumdünya Sağlamlıq Günü dünya ictimaiyyətinin diqqətini qlobal sağlamlıq üçün böyük əhəmiyyət kəsb edən bir mövzuya yönəltməyə bir imkandır. Ümumdünya Sağlamlıq Günü sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsi üçün birgə fəaliyyət göstərməyə xidmət edən tədbirdir.*

Azərbaycanda digər sahələr kimi, səhiyyənin inkişafı da məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründən başlayaraq ölkəmizdə səhiyyənin inkişafı sürətlənməyə başlamış, bir sıra mühüm islahatlar həyata keçirilmiş, müstəqillik illərində müasir xəstəxana binaları tikilərək istifadəyə verilmiş, bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, müasir səhiyyə infrastrukturu yaradılmışdır.





Ümummilli Liderin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev səhiyyənin inkişafına xüsusi diqqət yetirir. Əhalinin sağlamlığının qorunması dövlətin əsas prioritet sahələrindən biridir. Məhz bu səbəbdən bu gün səhiyyənin inkişafı diqqətdə saxlanılır, bu sahə dövlət qayğısı ilə yüksək səviyyədə təmin olunur. Səhiyyə sisteminin yenidən qurulması, infrastrukturunun yenilənməsi, səhiyyə müəssisələrinin müasir avadanlıqlarla təchiz olunması, kadr hazırlığı, yoluxucu xəstəliklərin profilaktikası və əks-epidemik tədbirlərin aparılması daim diqqət mərkəzində saxlanılır, insanların sağlamlığının qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər görülür. Dövlətin qayğısından böyük pay alan səhiyyənin inkişafı Naxçıvan Muxtar Respublikasında da dinamik xətdədir. Hazırda muxtar respublikada əhaliyə 719 həkim və 2 min 205 orta tibb işçisinin çalışdığı 215 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Hər il quruculuq tədbirləri sırasında muxtar respublikanın bir neçə tibb müəssisəsi yenilənərək əhalinin istifadəsinə verilir. 2023-cü ilin ötən dövrü ərzində də Şərur rayon Vərməziyar kənd feldşer-mama məntəqəsi, Babək rayon Vayxır kənd həkim ambulatoriyası, Ordubad rayon Xanağa kənd feldşer-mama məntəqəsi, Şərur rayon Axura kənd həkim ambulatoriyası, Həmzəli kənd feldşer-mama məntəqəsi və Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin MRT binası ən müasir tibbi avadanlıq və maddi-texniki baza ilə təchiz olunaraq əhalinin istifadəsinə verilmişdir.

Hazırda səhiyyə müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır, təcili yardım, elektrokardioqrafiya, exokardioqrafiya, EKQ-tredmil, rentgen, çoxprofilli diaqnostika, hemodializ, cərrahiyyə, kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə insan orqanizminin hərtərəfli müayinəsi mümkündür. Müasir tibbi avadanlıqlarla təminat Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda da şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə yüksək səviyyədə səhiyyə xidmətinin göstərilməsinə, o cümlədən tibbi yardım, ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələrin aparılmasına, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təmin edilməsinə, əlilliyin təyin olunması üçün lazımı tibbi sənədlərin hazırlanması və digər xidmətlərin təmin edilməsinə imkan verir.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsində icbari tibbi sığortanın tətbiqi hər bir vətəndaş üçün mühüm əhəmiyyət daşıyır. Tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə muxtar respublika əhəmiyyətli xəstəxanalar, rayon mərkəzi xəstəxanaları, qəsəbə və kənd sahə xəstəxanalarının hamısı publik hüquqi şəxs statusu alıb, burada işçilərin əməkhaqları 50 faiz artırılıb. Həmçinin publik hüquqi şəxs statusu almış tibb müəssisələrində əhaliyə göstərilən ödənişli xidmətlərdən 30 faizə qədər tibbi personala əlavə haqqın verilməsi də əhalinin sağlamlığına xidmət edənlərə göstərilən qayğının bariz nümunəsidir.

Muxtar respublikanın səhiyyə müəssisələrində hər ay minlərlə insan ambulator və stasionar müalicə edilir. Yerli kadrlar tərəfindən müstəqil şəkildə bir çox mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılmasına nail olunub. Mövcud kadrların ixtisaslarını artırmaq üçün müxtəlif həkim briqadaları Naxçıvana dəvət edilmiş və yerli kadrlarla birgə müayinə və müalicələrin aparılmasında iştirakı ardıcıl təmin olunmuşdur.

Səhiyyə müəssisələri tərəfindən Dövlət proqramları ilə əhatə edilmiş xəstələrə müayinə, müalicə və dərman təchizatı sahəsində keyfiyyətli xidmət göstərilməsi işi də daim nəzarətdə saxlanılır. Bu gün muxtar respublikada yaşayan xroniki böyrək çatışmazlığı ilə hemodializ seansı alan, dağınıq skleroz, hemofiliyalı, talassemiyalı xəstə və imtiyazlı qrup xəstələr daim yüksək qayğı ilə əhatə olunaraq vaxtlı-vaxtında dərman preparatları və tibbi xidmətlərlə təmin olunurlar. Həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşmışdır.

Səhiyyə müəssisələrində tibbi kadrlara olan tələbatın ödənilməsi sahəsində tədbirlər davam etdirilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində, Tibb Kollecində ixtisasların sayının artırılması, tələbələrin tibb müəssisələrinə hamiliyə verilməsi, xarici ölkələrdə təlimlərin təşkili, konfransların, seminarların keçirilməsi, ixtisasartırma kurslarının təşkili səhiyyə müəssisələrində ixtisaslı tibbi kadrlarla təminata imkan verir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri müxtəlif ixtisaslar üzrə tibb müəssisələrində istehsalat təcrübəsinə göndərilir və ya tibb müəssisələrinə hamiliyə verilir. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş imtahan nəticələrinə əsasən müxtəlif ixtisaslar üzrə həkim və orta tibb işçiləri tibb müəssisələrində vakant vəzifələr üzrə işlə təmin olunurlar.

İnsan sağlamlığının təmin edilməsi üçün yorulmadan çalışan səhiyyə işçiləri daim dövlət qayğısı ilə əhatə olunur, əməkləri qiymətləndirilir, fəxri adlara layiq görülürlər. Təkcə ötən il ərzində 2 həkim Azərbaycan Respublikasının “Tərəqqi” medalına, 1 həkim “Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi”, 1 tibb bacısı isə “Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi” fəxri adlarına layiq görülmüş, 1 orta tibb işçisi “Azərbaycan Respublikasının Əməkdar orta tibb işçisi”, 1 həkim və 1 orta tibb işçisi “Səhiyyə əlaçısı” döş nişanı, 1 həkim və 1 orta tibb işçisi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

Muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi gigiyena və epidemiologiya tədbirlərinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin fəaliyyəti təmin edilib, yeni binalar istifadəyə verilib, avadanlıqlar alınıb, müasir laboratoriyalar qurulub, ştat strukturu təsdiq edilib.

Səhiyyə turizmi də daim diqqətdə saxlanılır. Duzdağ Fizioterapiya Mərkəzində və Darıdağ Arsenli Su Müalicəxanasında hər il ölkə və bir çox xarici ölkə vətəndaşları müalicə olunurlar. Azərbaycanın rayonlarından sağlamlıq imkanları məhdud şəxslər sanator müalicə alması üçün həmin müəssisələrə göndərilir.

Məlumdur ki, 2023-cü il Azərbaycan Respublikasında Ümummilli Lider Heydər Əliyevin yüz illiyi münasibətilə “Heydər Əliyev İli” elan olunub. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan bütün tibb müəssisələri tərəfindən silsilə tədbirlər keçirilir. Nazirliyin təsdiq etdiyi qrafik əsasında təşkil olunan aksiyalarda şəhər və rayon xəstəxanalarının birgə həkim briqadaları mərkəzdə, eləcə də yaxın və uzaq kəndlərdə vətəndaşlara tibbi xidmətlər göstərir, müayinələr edirlər. Təkcə mart ayı ərzində “Heydər Əliyev İli” tədbirləri çərçivəsində 21 tibbi aksiya keçirilmişdir. İl ərzində bu cür aksiyaların keçirilməsi davam etdiriləcəkdir.

Muxtar respublikada aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə tədbirlər keçirilib



“Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında yerli özünüidarəetmənin banisidir” mövzusunda keçirilən tədbir Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Naxçıvan şəhər, qəsəbə, kənd bələdiyyələri assosiasiyaları tərəfindən birgə təşkil olunub.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Liderin Naxçıvan şəhərində Heydər Əliyev Muzeyinin qarşısında ucaldılmış abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla anıb. Sonra isə muzeydə dahi rəhbərin mənalı ömür yolu və dəyərli irsindən bəhs edən eksponatlarla tanış olublar.

Naxçıvan Dövlət Texniki Kollecində davam edən tədbirdə Ulu Öndərin əziz xatirəsi, eləcə də Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Bələdiyyələrlə iş mərkəzinin rəisi, kiçik ədliyyə müşaviri Xəyal Eyvazov “Ulu Öndər Heydər Əliyev və Azərbaycan bələdiyyəsi” mövzusunda çıxış edərək bildirib ki, yerli özünüidarəetmə orqanlarının, xüsusən də bələdiyyələrin statusunun əsasları Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul olunan Konstitusiya ilə müəyyənləşib. Azərbaycanda bələdiyyələrin yaranması görkəmli dövlət xadiminin adı ilə bağlıdır. Hazırda respublikamızda zəngin qanunvericilik bazasına əsaslanan yerli özünüidarəetmə sistemi formalaşmış, vətəndaş təşəbbüskarlığı üçün əlverişli şərait yaradılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkəmizdə yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin gücləndirilməsi istiqamətində də tədbirlər davam etdirilir.

Sonra Naxçıvan Şəhər Bələdiyyələri Assosiasiyasının sədri Nurələm İbrahimov “Ulu Öndərin tarixi missiyası və uğurları”, Naxçıvan Qəsəbə Bələdiyyələri Assosiasiyasının sədri Elnur Həsənov “Bələdiyyələr demokratik idarəetmə formasıdır” və Naxçıvan Kənd Bələdiyyələri Assosiasiyasının sədri Tofiq Babayev “Ulu Öndər aqrar islahatların banisidir” mövzusunda çıxış ediblər.

Tədbirin sonunda iştirakçılar dahi şəxsiyyət Heydər Əliyevin mənalı ömür yolu və dövlətçilik tariximizdəki misilsiz xidmətlərinə həsr olunan “Xalqa bağışlanan ömür” filminə baxıblar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

* * *



Naxçıvan Müəllimlər İnstitutunda “Ulu Öndər Heydər Əliyev və hüquqi dövlət quruculuğu” mövzusunda keçirilən tədbirdə giriş sözü ilə institutun ixtisasartırma və yenidənhazırlanma üzrə prorektoru Həbibə Allahverdiyeva, “Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda hüquqi dövlət islahatlarının memarıdır” mövzusunda Naxçıvan Muxtar Respublikası prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, “Ulu Öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğuna tarixi baxışı” mövzusunda Humanitar və ictimai fənlər kafedrasının müdiri Aslan İbrahimov çıxış edib.

Sonra Azərbaycan Televiziyasının hazırladığı “Ulu Öndər Heydər Əliyevin tarixi xidməti: “Tarixin izi ilə” filminə baxış olub.

Tədbirdə vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın milli dövlətçiliyinin inkişafına verdiyi töhfələr misilsizdir və onun irsi bu gün də etibarlı bünövrə kimi çıxış edir. Azərbaycanda hüquqi dövlət quruculuğu Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin başladığı köklü islahatların nəticəsidir ki, müasir Azərbaycan hüquq sisteminin inkişafı davamlı prosesə çevrilib. Ümummilli Lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Onun tərəfindən imzalanan fərman və sərəncamlar qısa dövr ərzində ölkəmizin dinamik yüksəlişini təmin etmiş və həyata keçirilən islahatlara yeni təkan vermişdir.

Diqqətə çatdırılıb ki, 2020-ci il Müzəffər Ali Baş Komandanın rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun böyük şücaəti ilə 44 günlük Vətən müharibəsi böyük qələbə ilə başa çatdı. Vətən müharibəsində əldə olunmuş Tarixi Zəfər bu gün Ulu Öndərin vəsiyyətinə ləyaqətlə əməl etmiş cənab İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev ideologiyasına söykənən siyasi kursun yeni keyfiyyətdə və yeni çağırışlar fonunda davamının nəticəsi kimi dəyərləndirilməlidir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin edəcəkdir.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

* * *

*Dünən “Heydər Əliyev İli” tədbirləri çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsin həkim briqadası və “Duzdağ” Fizioterapiya Mərkəzinin həkim heyəti tərəfindən humanitar tibbi aksiya keçirilib.*



Culfa Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsdə təşkil olunan aksiya zamanı rayon sakinləri endokrinoloji, USM, oftalmoloji, uroloji və digər sahələr üzrə müayinələrdən keçirilmiş, onlara həkim və laborator xidmətlər göstərilmişdir.

Tibbi aksiya zamanı 128 rayon sakininə 421 müayinə icra olunmuş, patologiyalar aşkarlanmış şəxslər dərindən müalicə və müayinələrinin aparılması məqsədilə müvafiq xəstəxanalara dəvət olunmuşlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Üç gün davam edəcək *“Fövqəladə hallara hazırlıq düşərgəsi”*nin açılış tədbiri olub






*Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Fövqəladə hallara hazırlıq düşərgəsi” tədbirinə start verilib.*

6-8 aprel tarixlərdə Babək rayon Şıxmahmud meşəsində reallaşacaq düşərgədə məşğələ saatları, təlim və seminarlar, yarışlar, panel müzakirə, özfəaliyyət saatı, infosessiya fəaliyyətləri təşkil olunacaq. 40 gəncin iştirak haqqı qazandığı layihənin iştirakçıları əvvəlcə Ulu Öndərin şəhərimizin mərkəzində ucalan abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin xatirəsinə ehtiramlarını bildiriblər. Sonra görkəmli dövlət xadiminin həyatı, çoxşaxəli fəaliyyətini minə yaxın maddi mədəniyyət nümunələri ilə özündə əks etdirən muzeyə baxış olub.

Daha sonra iştirakçılar Gənclər Mərkəzindən düşərgəyə yola düşüblər. Onlar çadırlara yerləşdirilib, təlimatlandırılıb, beş komandaya bölünüb və zəruri vasitələrlə təmin olunub. Düşərgənin rəsmi açılış tədbirində əvvəlcə Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Dövlət Himni səsləndirilib. Rəsmi açılış tədbirini Naxçıvan Muxtar Respublikası fövqəladə hallar naziri, polkovnik Şahin Mirzəyev açıb. Diqqətə çatdırıb ki, yetişməkdə olan gənc nəslin dövlətçilik əqidəsində tərbiyəsi, onlara vətənpərvərlik məfkurəsinin aşılanması, sağlam və dözümlü bədənə sahib olması qarşıya qoyulan əsas məqsəd kimi diqqəti cəlb edir. Bu gün gənclərimizin iştirak etdiyi bu tədbir də, inanırıq ki, onların düşüncə tərzində, fəaliyyətlərində müstəsna rol oynayacaq. Həmçinin bu sahədə öz bacarıqlarını sınamaq istəyən gənc könüllülərimiz də üç gün müddətində fövqəladə halların bütün praktik biliklərini mənimsəyəcək, bu sahədə geniş dünyagörüşü qazanacaq.

Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında qeyd edib ki, layihə gənclərin fövqəladə hallar, onlardan qorunma yolları barədə məlumatlılığının artırılması, onların bu sahədəki nəzəri və praktik biliklərinin yüksəldilməsi, eləcə də fövqəladə hallarla bağlı məsələlərin müzakirəsində və qarşısının alınması istiqamətində həll yollarının müəyyən edilməsində gənclərin fəal iştirakını təmin etmək məqsədilə keçirilir.

Daha sonra tədbir iştirakçıları simvolik olaraq ağac əkiblər.

Günün ikinci yarısında “Fövqəladə halların təsnifatı, onların yaranma səbəbləri və anlayışı”, “Fövqəladə hallar zamanı necə davranmalı”, “Fövqəladə hadisələr zamanı ilkin tibbi yardımın göstərilməsi” mövzularında müzakirə aparılıb, düşərgə iştirakçılarına zərərçəkənlərə ilk tibbi yardımın göstərilməsi qaydaları və onların tibb məntəqəsinə daşınması üzrə xilasedici-sanitarların davranış qaydaları və digər mövzularda geniş məlumat verilib. Müzakirələr zamanı diqqətə çatdırılıb ki, fövqəladə halların sayı ildən-ilə durmadan artır. Bu isə o deməkdir ki, fövqəladə hallar nəticəsində qurbanların, yaralananların da sayı, vurulan maddi ziyanın miqyasları da daim artmaqdadır. Sənaye obyektlərində və nəqliyyatda baş verən iri qəzalar və faciələr, eləcə də kortəbii və ekoloji bəlalar daha çox təhlükə yaradır. Sosial-ekoloji nəticələr bu zaman heç də iri hərbi münaqişələrin nəticələrindən geri qalmır. Bununla belə qəza və faciələr milli sərhədlər tanımır, böyük insan tələfatına yol açır və sosial, siyasi gərginliklər yaradır.

Qeyd edək ki, 3 gün davam edəcək “Fövqəladə hallara hazırlıq düşərgəsi” gənclərin fövqəladə hallar, onlardan qorunma yolları barədə məlumatlılığın artırılması, onların bu sahədəki nəzəri və praktik biliklərinin yüksəldilməsi, eləcə də fövqəladə hallarla bağlı məsələlərin müzakirəsində və qarşısının alınması istiqamətində həll yollarının müəyyən edilməsində gənclərin fəal iştirakını təmin etmək məqsədilə keçirilir.

**Məcid RƏŞADƏTOĞLU**



## Dahi şəxsiyyətin 100 illik yubileyinə həsr olunmuş *“Vətənim Azərbaycan”* mövzusunda rəsm müsabiqəsi

Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Şəhər Təhsil Şöbəsi və Naxçıvan Şəhər İdman İdarəsinin birgə təşkilatçılığı ilə dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında “Vətənim Azərbaycan” mövzusunda rəsm müsabiqəsi keçirilmişdir. Müsabiqədə 17 ümumtəhsil məktəbi üzrə 73 şagird 81 rəsm əsəri ilə iştirak etmişdir.



Məqsəd Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı misilsiz fəaliyyəti, Vətən uğrunda canını fəda edən şəhidlərin qəhrəmanlığını tərənnüm etməklə rəsm əsərlərində şagirdlərin müasir və inkişaf edən Azərbaycanımıza necə təsəvvür etmələrini və gələcəklə bağlı arzularını ifadə etmələridir.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva, Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Baba Əliyev və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək iştirakçılara uğurlar arzulamışdır.

Müsabiqənin yekun nəticəsinə görə Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin şagirdi Leyla İsmayıl I yerə, 11 nömrəli tam orta məktəbin şagirdi Gülnur Həsənova, 14 nömrəli tam orta məktəbin şagirdi Sevgi Abdullazadə və 16 nömrəli tam orta məktəbin şagirdi Səidə Budaqlı II yerə, 3 nömrəli tam orta məktəbin şagirdləri Fatimə Həsənli, Əminə Quliyeva, 17 nömrəli tam orta məktəbin şagirdi Aysun Məmmədova III yerə, 6 nömrəli tam orta məktəbin şagirdi Həcər Fərzəliyeva, 14 nömrəli tam orta məktəbin şagirdi Elcan Zamanlı və 16 nömrəli tam orta məktəbin şagirdi Zərifə Quluzadə isə həvəsləndirici yerə layiq görülmüşlər. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

**Xəbərlər şöbəsi**

## *“Əlahiddə Ümumqoşun Ordunun 2023-cü tədris ilinə hazırlıq planı”*na uyğun olaraq tabelikdə olan birləşmə və hissələrlə ərazidə komanda-qərargah təlimi keçirilib



Təlimin ilkin mərhələsində birləşmə, hissə və bölmələrin təlim döyüş həyəcan siqnalı ilə qaldırılaraq döyüş təyinatı rayonlarına çıxarılması və döyüşə hazır olmanın müxtəlif dərəcələrinə gətirilməsi üzrə fəaliyyətlər yerinə yetirilib. Döyüş təyinatı rayonlarında əsas diqqət birləşmə, hissə və bölmələrin ərazidə maskalanmasına, müdafiə və mühafizəsinə, xüsusilə düşmənin pilotsuz uçuş aparatlarına qarşı mübarizə tədbirlərinin icrasına yönəldilib.

Təlimin əməliyyatların planlaşdırılması mərhələsində yaranmış taktiki şəraitə uyğun olaraq qərargahlar tərəfindən əməliyyat şəraiti qiymətləndirilib, tabelikdə olan birləşmə, hissə və bölmələrin tapşırıqları dəqiqləşdirilib. Planlaşdırmanın gedişində qərargahlar tərəfindən komandirlərin çevik qərar qəbul etməsi və bölmələrin idarə olunması üçün taktiki hesabatlar aparılıb və zəruri məlumatlar hazırlanıb. Alınan qərarlar rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə praktiki fəaliyyətlərə cəlb olunmuş bölmələrə çatdırılıb.

Təlimin gedişində hava hücumundan müdafiə bölmələri şərti düşmənin aviasiya vasitələrinin aşkarlanması və izlənməsi üzrə praktiki fəaliyyətləri yerinə yetirib.

Təlimin ssenarisinə uyğun taktiki fəaliyyətlərin praktiki icra mərhələsində xüsusi təyinatlı qruplar tərəfindən düşmənin müdafiəsinin ön xəttində yerləşən döyüş mövqelərinə və vacib obyektlərə basqın keçirilib. Mövqelərə keçirildikdən sonra irəliləmə marşrutlarında şərti düşmənin yaxınlaşan ehtiyatlarına pusqular qurularaq hərəkətləri məhdudlaşdırılıb və irəliləməsinin qarşısı alınıb.

Yaranmış vəziyyətdən yararlanaraq mexanikləşdirilmiş bölmələr artilleriya atəşinin dəstəyi ilə düşmənin müdafiəsinin dərinliyinə irəliləyərək əlverişli hədləri ələ keçirib.

Taktiki fəaliyyətlərin icrasında komandirlər tərəfindən bölmələrin düzgün və dəqiq idarə edilməsinə və əməliyyatlar zamanı tabelikdəki bölmələrin fasiləsiz olaraq bütün növ təminatlarla təmin olunmasına xüsusi diqqət yetirilib.

Təlimin kompüter dəstəkli mərhələsində qəbul edilmiş qərarların və aparılmış hesabatların reallığı Simulyasiya Mərkəzində kompüterlər üzərində yoxlanılıb.

Xüsusitəyinatlı, artilleriya, hava hücumundan müdafiə, rabitə, təminat və mexanikləşdirilmiş bölmələrin birgə fəaliyyəti nəticəsində qarşıya qoyulmuş məqsədlərə nail olunduğu təlimdə qoşunların döyüşə hazır olma vəziyyətinə gətirilməsində və əməliyyatların planlaşdırılmasında qərargahların hazırlıq səviyyəsi yüksək qiymətləndirilib.

Əlahiddə Ümumqoşun Ordunun Döyüşü İdarəetmə Mərkəzində yaradılan monitorinq qrupunun təhlili zamanı təlimin gedişində qoşunların hərəkətilə bağlı sosial şəbəkələrdə heç bir videomaterialın yayımlanmadığı müşahidə edilib. Əlahiddə Ümumqoşun Ordu komandanlığı hərbi sahədə dövlət sirri təşkil edən məlumatların qorunmasına diqqət göstərən əhaliyə təşəkkürünü bildirir.

**Kənan CƏLİLOV**

## Muxtar respublikada birinci rübdə 87 elektron imza sertifikatı verilib




Elektron imza elektron məkanda imzalamanı təmin edən və bütün beynəlxalq təhlükəsizlik standartına cavab verən tam təkmil imzalama vasitəsidir.

Muxtar respublikada elektron imza sisteminin tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi uğurla həyata keçirilir. Elektron imzanın əsas mahiyyəti informasiyanı hazırlayan şəxsin həqiqiliyinin yoxlanılması və üçüncü tərəfə informasiyanı yaradan şəxsi müəyyən etməsinə imkan yaratmasıdır. İmzadan bütün vətəndaşlar, o cümlədən dövlət orqanları, fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. Muxtar respublikada cari ilin birinci rübündə 5-i sahibkar, 16-sı hüquqi şəxs və 66-sı dövlət qurumu olmaqla, ümumilikdə, 87 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilib.

Vətəndaşların nəzərinə çatdırılır ki, elektron imzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu hüquqi şəxslər üçün 72 AZN, dövlət qurumları üçün 58 AZN, sahibkarlar üçün 36 AZN, vətəndaşlar üçün 18 AZN təşkil edir, istifadə müddəti isə 3 ildir. Elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *nmincom.gov.az* və ya *token.sima.az* saytı vasitəsilə əldə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Milli brendimiz dünyanı fəth edir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması ilə həm də bu strukturda fəaliyyət göstərəcək “ASAN xidmət” brendinin əsası qoyulub. Ölkəmizdə dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin operativ, şəffaf və vətəndaş məmnuniyyəti ilə həyata keçirilməsini təmin edən mərkəzlər (ASAN xidmət) ilk dəfə 2013-cü ildə fəaliyyətə başlayıb. Ötən dövrdə mühüm inkişaf yolu keçmiş bu xidmət dünya ölkələrinin də diqqətini böyük maraqla özünə cəlb edib. Təsadüfi deyil ki, fəaliyyətinin birinci ilinin sonunda bu xidmətdən 1 milyondan çox vətəndaş istifadə edib, həmçinin 2014-cü ildə “ASAN xidmət” İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikat əldə edib. Həmin ilin yayında səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə brend “Uğur 2013” mükafatına, dekabr ayında OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata, 2015-ci ildə isə BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülüb. Eyni zamanda həmin il Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisəsinin müraciət etdiyi müsabiqənin “Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması” sahəsi üzrə qalib olub. Statistikaya görə, indiyə qədər xidmətə 60 milyondan çox müraciət olub, vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi isə 98-100 faiz arasında dəyişir.

Operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq kimi altı əsas prinsip üzərində qurulan brend fəaliyyətinin 10-cu ilində daha böyük bir uğura imza atıb. Belə ki, aprelin 3-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə “Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi” adlı qətnamə yekdilliklə qəbul edilib. Qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı üzv dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulub. Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş “ASAN xidmət” konsepsiyasına əsaslanan “dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması” prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir. Qəbul edilmiş qətnamə səmərəli dövlət xidmətlərinin bütün insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin həyata keçirilməsində əhəmiyyətini göstərir.

Vurğulayaq ki, qəbul edilmiş qətnamə rəqəmsal texnologiyaların korrupsiyanın qarşısının alınması və onunla mübarizədə oynadığı mühüm rolu ön plana çıxarır və dövlət xidmətləri sahəsində uğurlu modellər təsis etmiş BMT ona üzv olan ölkələri öz təcrübələrini digərləri ilə bölüşməyə dəvət edir. Qətnamənin yekdilliklə qəbulu milli brendimizin fəaliyyətinin genişləndirilməsi ilə yanaşı, ölkəmizdə insan hüquqlarının müdafiəsi və vətəndaş məmnuniyyəti istiqamətində həyata keçirilən tədbirlərə beynəlxalq dəstəyin yüksək qiymətləndirilməsi kimi də yanaşmaq olar.

**Səbuhi HƏSƏNOV**

*Yazın gəldiyi, torpaqdan boy göstərən nanənin, yarpızın ətri aləmi bürüdüyü, quşəppəyinin, cincilimin, çirişin gəl-gəl dediyi yaz günlərində Naxçıvan sakinləri səbirsizliklə "Kətə" festivalının keçiriləcəyi günü gözləyir. Biz də yolumuzu yurdumuzun rayonlarına salır, ailə təsərrüfatçılarının bu festivala necə hazırlaşdıqlarını öyrənir, kətələrin bişirilmə qaydası ilə tanış oluruq.*

# Ailə təsərrüfatçıları səbirsizliklə gözlənilən "*Kətə*" festivalına hazırlıq işləri görürlər



Şərur rayon sakini, ailə təsərrüfatçısı ***Misiri Zaxarova*** bildirir ki, 20 ilə yaxındır, xəmir məmulatları istehsalı ilə məşğuldur. Builki festivala da həvəslə hazırlıq görür: – Yaz ki gəldi, süfrənin ən əziz yeməklərindən biri də kətə olur. Yurdumuzun bərəkətli torpaqlarında min cür dadlı, faydalı bitkilər bitir ki, sakinlər bu bitkiləri yığıb bazara çıxarır, müxtəlif yeməklər bişirib süfrəsinə qoyur, o cümlədən kətə hazırlayır. Kətəni təndirdə bişirmək milli mətbəx ənənəmiz olmaqla yanaşı, onu sacda da ərsəyə gətiririk. Müsahibim onu da deyir ki, festivala gələnlər də ən çox odunla yandırılan təndirdə bişirilən kətələrə üstünlük verirlər. Müasir dövrümüzdə təbii qaz və elektrik ilə işləyən təndirlər var, amma insanlar odunla yandırılan təndirlərdə bişirilən xəmir məhsullarını daha çox sevir.

Nənələrimizin "Közün ətri hopanda çörək də, kətə də daha dadlı olur" deyimini yada salan müsahibim məsləhət də verir ki, qutabı yedikdən sonra bir az qatıq, ya da ayran içmək onun rahat həzm olmasına səbəb olur. Ümumiyyətlə, xəmir yeməkləri "ağır" yemək olduğundan onların yaxşı həzm edilməsi üçün süfrəyə qatıq, ayran qoymaq məsləhətdir.

Digər bir müsahibim Kəngərli rayonunun Şaxtaxtı kənd sakini, ailə təsərrüfatçısı ***Təranə İmanova*** da festivalda satışa çıxaracağı ət və şor qutabının hazırlanmasından söhbət açır: – Əvvəlcə hazırlanmış xəmir nazik şəkildə yayılır. Yumşaq qoyun əti və soğandan hazırlanmış qiyməyə lavaşana və ya narşərab əlavə edilərək qarışdırılır. Həmin qiymə nazik yayılmış xəmirin yarı hissəsinin üzərinə qoyulur, o biri yarısı ilə qiymənin üstü örtülür. Daha sonra qutabın kənarları əllə basılaraq yapışdırılır və sacın üstündə hər iki üzü qızardılır. Ət qutabı, adətən, quzu ətindən hazırlanır. Şor qutabının da hazırlanma texnologiyası ət qutabı ilə eynidir, sadəcə, içliyinə görə fərqlənir. Şor qutabında içlik kimi şor və ya kəsmikdən istifadə olunur. İçlik şora və ya kəsmiyə göyərti (əsasən, şüyüd), duz, istiot, yağda qovrulmuş soğan, nar dənələri əlavə edilib qarışdırmaqla hazırlanır. İlk olaraq xəmirdən kiçik kündələr tutulur, oxlovla yayılır, üzərinə göyərti qoyulur, zərf şəklində bükülür, təndirə yapılır (sobada da bişirilir). İsti-isti içərisinə kərə yağı və ya xama qoyularaq yeyilir. Eyni qaydada qırxbuğum, qazayağı, cacıq, quşdili və sair yabanı göyərtilərdən də kətə hazırlanır. Bəzən kətəni bişirərkən yayılmış xəmirin içərisinə göyərti ilə yanaşı, pendir də ovub tökürlər.

Sərhəd bölgəmiz Sədərəkdəki qadın ailə təsərrüfatçısı ***Nazilə Əliyeva*** ilə də həmsöhbət oluruq. "Kətənin hazırlanması ilə bağlı hər bir xanımın öz sirri var", – deyən müsahibim bişirilən şomu, qarışıq göyərti, çiriş, gicitkən, balqabaq, mərcimək, lobya cəviz, halvalı, şirin, döymə, dürmək kətələrindən söhbət açır: – Yazın ilk aylarında yeyilə bilən yabanı bitkilərdən hazırlanan kətə çeşidləri Naxçıvan mətbəxində xüsusi yerə malikdir. Göyərti qutabı, kətə, əsasən, yaz aylarında, pencər bol olan vaxt bişirilir. Kətələri dağlarda bitən ən dadlı pencərlərimizlə hazırlayırıq. Dadı ilə seçilən bitkilərin tərkibi vitamin və minerallarla zəngin olduğu üçün onlardan hazırlanan kətələr insan sağlamlığı üçün çox faydalıdır. Kətə bişirmək üçün acıtmalı xəmir yoğururlar. Acıtma üçün əvvəlki xəmirdən saxlanmış balatadan istifadə edirlər. Xəmir gəldikdən sonra onu ərsinlə tikələrə bölüb kündələr hazırlayır, kündələri də bir az saxlayırlar. Sonra isə yayqının (dairəvi formada ağacdan hazırlanır) üstündə nazik təbəqə formasında yayılır.



Ordubad rayonunun Sabirkənd sakini, ailə təsərrüfatçısı ***Samiyə Həsənova*** deyir ki, hər il festivallara həvəslə hazırlaşırlar: – Belə festivallar milli mətbəximizi tanıtmaqla, onun yaşadılmasına şərait yaratmaqla yanaşı, ailə büdcəmizə də yaxşı təsir göstərir. Festivala bir gün qalmış pencərləri yuyur, kətan parçalara bükürük. Dağ pencərlərindən bəziləri əvvəlcədən qaynadılıb sıxılır və yağda qovrulur, bir az tez bişənləri, məsələn, salmanca pencəri isə doğrandıqdan sonra aşsüzənə tökülür, üzərinə duz səpilir, lavaşın içərisinə qoymazdan əvvəl ovulur və sıxılır. Hazırladığımız içlikləri səhər tezdən yoğurduğumuz xəmirlə bərabər festivalın keçiriləcəyi əraziyə gətirir və sakinlər gələnə kimi təndir qalayır, isti-isti müştərilərimizə təqdim edirik.

Şərur rayonunun Kürkənd sakini ***Bəsti Ələkbərova*** ilə söhbətdə bildirdi ki, yaz fəsli gələndə qış uzunu itirdiyimiz immunitetin geri qaytarılması üçün əlimizə fürsət düşür. Bəzilərinin adi yabanı alaq otu bildiyi quşəppəyi, şomu, yemlik, quzuqulağı, cincilim, əvəlik, salmanca, unnuca, çiriş kimi bitkilərdən hazırlanan göy kətəsinin yerini heç bir dadlı qazan yeməyi verə bilməz. İlin bu vədəsində hamının ağız dadı ilə xoşladığı, muxtar respublikamızın hər bölgəsində bişirilən kətələr fərqli olur. Bəsti xanım söhbətə belə davam edir: – Kətə Naxçıvan mətbəxinin özünəməxsus dadı və ləzzəti ilə seçilən yeməklərindən biridir. Bu il qışın isti keçməsinin nəticəsidir ki, artıq dağlara güclü axın başlanıb. Pencərlər yığılır, onlardan gözəl yeməklər hazırlanır. Yazda təzə-təzə yığılıb qovrulan pencərin dadı xüsusi olur. Yaz dövrü üçün ehtiyat qovurma saxlanılır. İlk qovrulan "nubarçalıq" pencərə qovurma vurulur. Yaz pencərlərinin qovrulması, demək olar ki, eynidir. Yığılan pencərlər arıtlanır, yuyulur, azca su ilə qaynamağa qoyulur. Soğan qovrulur, suyu süzülən pencər oraya əlavə edilir. Sarıkök, duz, istiot və yumurta vurulur. Yağda qovrulmuş pencər çox vaxt qatıqla yeyilir. Yazın ilk yeyilən bitkisi yarpız və bulaqotudur. Həyətlərdə, çay kənarlarında yarpız ilk cücərən yaz bitkisidir. Yazda yarpızla yeyilən pendir dürməyinin xüsusi dadı olur.



Bəsti xanım: – Ay qızım, indi ki kətənin sorağına gəlmisən, ləzzətini dadmasan, olmaz! Həm də atalarımız yaxşı deyib, yüz eşitməkdənsə, bir görmək yaxşıdır, – deyə un, süd, yağ, duz götürərək kətə xəmiri hazırlamağa başlayır. İzah edir ki, kətə bişirmək üçün acıtmalı xəmir yoğururlar. Bunun üçün xəmrədən istifadə edirlər. Kətə üçün bərk xəmir yoğrulmalıdır. Xəmiri yoğurub üstünü basdırandan sonra Bəsti xala "Xəmir özünü tutana qədər içi hazırlayaq",– deyir. Şomu, çiriş, cincilim, quşəppəyi, gicitkən və əvəliyi təmizləyib yuyuruq. Aşsüzəndə suyu bir az süzüldükdən sonra köməkli narın doğrayırıq. Sonra Bəsti xalanın göstərişi ilə içərisinə doğranmış soğan, duz, istiot əlavə edirik.

Bəsti xala hazır kətələrdən bir boşqaba qoyub, qonşuya da göndərdi ki, evdə yaşlı xəstələri var, isti-isti yesinlər. Sonra deyir ki, evdə bişənin ətri ətrafa yayılır, buna görə də qonum-qonşuya da pay tutarlar ki, onlar da nubar etsinlər. Qızım, bu gözəl adət ana-nənələrimizdən qalıb... Süfrə başına yığışıb hazırladığımız kətələrdən isti-isti, deyə-gülə, ağız ləzzəti ilə yeyirik. Ona minnətdarlığımı bildirərək sağollaşıb yola düşürəm.

Culfa rayonunun Milax kənd sakini, ailə təsərrüfatçısı, ötənilki festivalın qalibi ***Ceyran Quliyeva*** ilə də görüşüb həmsöhbət olduq: – Bir neçə ildir, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən, milli mətbəx ənənələrimizi, dəyərlərimizi əyani formada nümayiş etdirən "Kətə" festivalına muxtar respublikamızın hər bölgəsindən iştirakçılar qatılır. Bu tədbirlərə ölkəmizin digər bölgələrindən, həmçinin xarici ölkələrdən gələn insanlar da böyük maraq göstərirlər. Qədim diyarımızın təbii bitki növləri arasında dad-tamı ilə seçilən, yuxarıda adıçəkilən pencər çeşidləri onların da xoşuna gəlir.

İlin bu çağında diyarımızın sakinləri təbiətin qoynuna üz tutur, həmin pencərlərdən toplayır, bir az əvvəl bəhs etdiyimiz kimi, müxtəlif təamlar hazırlayır, Naxçıvandan kənarda yaşayan dost-tanışın, qohum-əqrəbanın da payını göndərirlər. Beləliklə, yurdumuzun insanları həm yazın ilk müjdəçisi olan, ekoloji təmizliyi ilə tanınan bu nemətlərdən dadır, həm də əsrlərboyu qorunub saxlanılan milli mətbəx nümunələrimizi yaşadırlar. Bu pencərlər həm də vitamin zənginliyi, insan orqanizminə faydaları ilə tanınır. Süfrəmizin bəzəyi olmuş bu nemətlər təbii qidalanma baxımından da əhəmiyyəti ilə seçilir.

*Bu gün diyarımızın sakinləri və qonaqları paytaxt şəhərimizin ən qonaq-qaralı ünvanlarından biri olan "Naxçıvanqala"da bu ləziz təamların dadına baxmaq imkanı qazanıblar. Onlara nuşcanlıq arzulayırıq.*

**Ramiyyə ƏKBƏROVA**
**Aytac CƏFƏRLİ**

## Elan

"Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi" tərəfindən 2023-cü il üzrə dövlət büdcəsi vəsaiti hesabına Tədbirlər proqramlarına uyğun nəzərdə tutulan və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeçiliyində olan tibb müəssisələrini dərman vasitələri, sarğı ləvazimatları və materialları, diaqnostik, laborator və digər tibbi təyinatlı vasitələr, ləvazimatlar və materiallar ilə təmin etmək məqsədilə potensial imkanlara (işçi qüvvəsinə, müvafiq işlər üzrə təcrübəyə, aidiyyəti ixtisasa, maliyyə və texniki imkanlara) malik olan hüquqi və fiziki şəxsləri

**Açıq tenderə dəvət edir (TƏKRAR)**

Lot 1 – Müalicə-profilaktika müəssisələrinin təminatı üçün zəruri olan və Tədbirlər proqramları üçün nəzərdə tutulmuş dərman vasitələrinin, sarğı ləvazimatları və materiallarının, diaqnostik, laborator və digər tibbi təyinatlı vasitələrin, ləvazimatların və materialların satın alınması.

Tender təklifləri "bal" sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Üstünlük veriləcək meyarlar: ən səmərəli qiymət, yüksək keyfiyyət və qrafikə uyğun malların təhvil verilməsi.

Malların təchizat qrafiki müqavilə qüvvəyə mindiyi vaxtdan 31.12.2023-cü il tarixə kimi nəzərdə tutulmuşdur.

Tenderdə iştirak etmək istəyənlər "26" aprel 2023-cü il saat $18^{00}$ tarixə kimi aşağıdakı sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) təqdim etməlidirlər:

- *Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində bank təminatını (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *İddiaçının hüquqi statusunu təsdiq edən sənədlər – qeydiyyatdan keçdiyi ölkə, qeydiyyat şəhadətnaməsinin, nizamnamənin və digər hüquqi sənədlərin notarial təsdiq olunmuş surətləri, hüquqi ünvanı və bank rekvizitləri;*
- *İddiaçının potensial (peşəkarlıq, təcrübə, texniki və maliyyə imkanları, işçi qüvvəsi və sair) imkanlarının olması haqqında məlumat;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olub-olmaması barədə arayış;*
- *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi haqqında arayış;*
- *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (Yalnız dərmanlar üçün);*
- *Tender komissiyasının zəruri saydığı digər arayış və sənədlər.*

Tenderdə iştirak haqqı ödəməsinə baxmayaraq, rəsmi müraciət etmiş iddiaçıların ixtisas uyğunluğu ilkin qiymətləndirilərək tender predmetini əhatə etməyən və ixtisası uyğun olmayan iddiaçılar kənarlaşdırılacaqdır. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

Vəsaiti alan: Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi

***Hesab N: AZ21NABZ12360100000000005944***
***VÖEN: 0200003621***
***Benefisiar (alan) bank: Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi***
***VÖEN: 0200087741***
***Müxbir hesab: AZ88NABZ01451700000000012944***
***Kod 502906***
***S.W.I.F.T. NABZAZ 2C***

İddiaçılar Azərbaycan dilində hazırladıqları tender təkliflərini və təklifin 1 (bir) faizi məbləğində bank təminatını (təklif zərfləri açıldığı gündən sonra azı 60 bank günü ərzində qüvvədə olmalıdır) bağlı zərfdə 5 may 2023-cü il saat $15^{00}$-a qədər Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi (Ünvan: Naxçıvan şəhəri, Ə.Əliyev 120 Tel: 036 545 56 95) təqdim etməlidirlər.

Gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi bir ədəd əsli, bir ədəd surəti ikiqat zərfə daxil edilərək imzalanmış, möhürlənmiş şəkildə olmalıdır. Zərfin üzərinə "8 may 2023-cü il saat $15^{00}$-a kimi açılmamalıdır" sözləri yazılmalıdır. Tender təklifləri açıldığı gündən sonra azı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Tender təklifləri olan zərflər 8 may 2023-cü il saat $15^{00}$-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq keçiriləcəkdir.

***Əlaqələndirici şəxs: Musayev Asəf Mütəllim oğlu***
***Tel: 051-311-12-77, 036-545-56-93***
***Mail: sehiyyemaliyye@gmail.com***
***Tender komissiyası***

### *İtmişdir*

104013007584 reyestr nömrəli torpaq sahəsinə verilmiş 21.10.2016-cı il tarixli, 1216008195 qeydiyyat nömrəli çıxarış, torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

104012000030-12301 reyestr nömrəli əmlaka verilmiş 20.10.2017-ci il tarixli, 18244 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri kəndində yaşamış İsmayılov Abdulla İsmayıl oğlunun adına olan JN-767$^{A}$ inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kərəmli Fərdi Möhsün oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 247